İNŞAATÇI KADRLAR

Azərbaycan Memarlıq və İnşaat Universitetinin qəzeti

The newspaper of Azerbaijan University of Architecture & Construction

№1(439) 29 yanvar 2021-ci il www.azmiu.edu.az

AzMİU-da onlayn qaydada keçirilən imtahanlar başa çatmaq üzrədir

Əziz oxucular! Azərbaycan Memarlıq və İnşaat Universitetində yanvarın 11-dən başlanan 2020–2021-ci tədris ili payız semestrinin imtahan sessiyası demək olar ki, başa çatmaq üzrədir. Koronavirus (COVID-19) pandemiyasının yaratdığı mövcud vəziyyətə əsasən sessiya onlayn qaydada test, yazılı və magistr tələbələri üçün eyni zamanda şifahi üsulla, xüsusi qabiliyyət tələb edən fənlər üzrə isə ənənəvi qaydada keçirilir.

Məlumat üçün onu da qeyd edək ki, 2020–2021-ci tədris ilinin payız semestrinin imtahan sessiyasının təşkili ilə bağlı universitetimizin rektoru, professor Gülçöhrə Məmmədova əmr imzalamışdır. Həmin əmrə əsasən sessiya başlanmazdan əvvəl imtahanların şəffaf və obyektiv keçirilməsi məqsədilə fakültə dekanları, kafedra müdirləri və İKT Mərkəzi qarşısında konkret vəzifələr qoyulmuşdur.

ZOOM platforması üzərindən onlayn qaydada keçirilən test imtahanına 50 dəqiqə, yazılı imtahana isə 90 dəqiqə vaxt ayrılır. İmtahanların idarə edilməsində gənc müəllimlərdən və İKT Mərkəzində xüsusi təlim keçmiş tədris köməkçi heyətdən 80-ə yaxın proktor (nəzarətçi) qrupu fəaliyyət göstərir.

Yanvarın 11-dən bugünədək təsdiq olunmuş cədvələ əsasən bakalaviatura səviyyəsində 284 qrup üzrə 6741 tələbənin imtahanlarda iştirak etməsi nəzərdə tutulmuşdur. Onlardan 6512 (97%) imtahanlarda iştirak etmiş və 90%-ə qədəri müvəffəq qiymət almışdır. Magistratura səviyyəsində isə imtahanlarda 89 qrupda 511 magistrin iştirak etməsi nəzərdə tutulmuşdur. Bunlardan 487 (95%) imtahanlarda iştirak etmiş və hamısı müvəffəq qiymət almışdır.

Sessiyada obyektivliyin və şəffaflığın təmin edilməsi və imtahan prosesi ilə bağlı şikayətlərin araşdırılması məqsədilə İmtahan Qərargahı, imtahanların qiymətləndirilməsi ilə bağlı şikayətlərin araşdırılması məqsədilə isə Apellyasiya komissiyası yaradılıb. İmtahanların gedişi universitet rəhbərliyi və imtahanlara məsul şəxslərin nəzarəti ilə həyata keçirilir. Onlar mütəmadi olaraq imtahan prosesini izləyir, neqativ hallar baş verərsə, operativ şəkildə qarşısını alırlar.

Distant formada keçirilən qış imtahan sessiyası fevralın 6-dək başa çatacaqdır.

Şəfi DANYALOV,
Tədris işləri üzrə prorektorun köməkçisi.

Şəhidlər ölməz, Vətən bölünməz!

Ötən il sentyabrın 27-də başlanan və 44 gün davam edən Vətən müharibəsində döyüş tapşırıqlarını yerinə yetirərkən canlarından keçərək şəhidlik zirvəsinə yüksələnlər arasında Azərbaycan Memarlıq və İnşaat Universitetinin doktorant, tələbə və məzunları da vardır. Onlardan biri də 2019-cu ildən universitetimizin doktorantura pilləsində təhsil alan Elçin Vaqif oğlu Həsənlidir.

O, 1993-cü ildə Ağstafa rayonunun Həsənsu kəndində ziyalı ailəsində dünyaya göz açmışdır. 2010–2014-cü illərdə Azərbaycan Texniki Universitetinin bakalaviatura, 2015–2017-ci illərdə isə magistratura pillələrində təhsil almışdır.

Elçin Həsənli istedadlı, qabiliyyətli, vətənpərvər bir gənc idi. O, 2020-ci ilin iyul ayında Azərbaycanın ordu sıralarına qoşulmaq üçün könüllü qeydiyyatdan keçir və 27 sentyabr 2020-ci il tarixində Vətən müharibəsinə yollanır. Bir müddət Gəncədə təlim keçdikdən sonra könüllülərdən ibarət batalyonun tərkibində Füzuliyə aparılır. Sonra da Cəbrayıl, Qubadlı uğrunda gedən döyüşlərdə iştirak edir.

Elçin noyabrın 8-də Şuşa uğrunda gedən döyüşlərdə ağır yaralanaraq qəhrəmancasına şəhidlik zirvəsinə ucalır.

Elçin Həsənli Azərbaycan Prezidentinin Sərəncamına əsasən ölümündən sonra Vətən müharibəsində göstərdiyi igidliyə görə "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

***

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində döyüş tapşırıqlarını yerinə yetirərkən şəhid olmuş tələbə məzunlarımızdan biri də MİT fakültəsinin 840A2 qrupunda təhsil almış Azad Rasim oğlu Bəkirlidir. Əslən Ağdaş rayonundan olan Azad ali təhsilini başa vurub, istehsalatda çalışırdı. O öz əməyi, öz zəhməti ilə dolanan 28 yaşlı bir gənc idi. Azad qəlbinin hökmü, vicdanının səsi ilə Bakının Nərimanov rayonundan cəbhəyə getmişdi. Füzuli və Cəbrayıl uğrunda gedən ağır döyüşlərdə yaralansa da yenə qürurunu əyməmiş, düşməndən intiqam almaq üçün yenidən silaha sarılmışdı.

Azad Bəkirli 2020-ci il oktyabrın 21-də Füzuli rayonunun Gecəgözlü kəndi ətrafında gedən ağır döyüşlərin birində şəhid olur. Azərbaycan Memarlıq və İnşaat Universitetinin kollektivi Azad Bəkirlinin ailə üzvlərinə, yaxınlarına dərin hüznlə başsağlığı verir, Allahdan ona rəhmət diləyir.

***

Azərbaycan Memarlıq və İnşaat Universitetinin professor-müəllim heyəti və tələbə kollektivi Vətənimizin ərazi bütövlüyünün bərpa edilməsində canlarını qurban verən, şəhid olub əbədiyyətə qovuşan tələbə və məzunlarımızın xatirəsini daim uca tuturlar. Belə şəhid məzunlarımızdan biri də universitetimizin MİT fakültəsinin 841R qrupunda təhsil almış Rafael İlqar oğlu Mailovdur.

Rafael oxuduğu illərdə universitetimizin təhsildə də, ictimai işlərdə də nümunəvi tələbələrindən olub. O, Bakının Nizami rayonunda yaşayırdı. Ali təhsilini başa vurub təzəcə işə düzəlmişdi. 26 yaşında subay bir gənc idi. Vətən müharibəsi başlayanda könüllü olaraq cəbhəyə getmişdi. Füzuli və Cəbrayıl istiqamətində gedən döyüşlərdə vuruşurdu.

Rafael Mailov 2020-ci il oktyabrın 14-də Füzulinin alınmasında döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur. Onun məzarı paytaxtımızın Nizami rayonundakı Şəhidlər qəbiristanlığındadır.

– Allah ona da, bütün şəhidlərimizə də rəhmət eləsin.

Surxay ƏLİYEV,
universitet Həmkarlar İttifaqı Komitəsinin sədri,
Əməkdar müəllim.

Müəllimlər tələbələrə imtahanqabağı konsultasiya keçiblər

Koronavirus (COVİD-19) pandemiyası ilə mübarizə çərçivəsində xüsusi karantin rejimi və məcburi sosial təcrid tədbirləri səbəbilə ötən semestrdə olduğu kimi bu semestrdə də dərslər onlayn Zoom platforması üzərindən aparılıb. Bütün fakültələrdə dərslər yekunlaşan kimi, imtahana düşəcək suallar, eyni zamanda imtahanları əhatə edən elektron dərs vəsaitləri tələbələrin şəxsi kabinetlərinə yerləşdirilib.

Qeyd edək ki, semestr ərzində keçilən fənləri tədris edən müəllimlər onlayn qaydada tələbələrlə imtahan öncəsi konsultasiyalar təşkil edib. Əvvəlcədən təyin olunmuş vaxtlarda tələbələrə suallarla bağlı ətraflı məlumat verilib. Zərurət yarandıqda müəyyən dərslərdən əlavə seminarlar, çətinlik yaranan bölmələr üzrə əlavə mühazirələr müəllimlər tərəfindən təşkil olunub.

Səlmi ƏLİYEVA,
Tədris şöbəsinin müdiri.

20 Yanvar – müstəqilliyə gedən yolda xalqımızın şərəf və qəhrəmanlıq salnaməsi

Azərbaycan xalqının tarixində ən kədərli və eyni zamanda şanlı səhifə olan 20 Yanvar hadisələrindən 31 il keçir. Keçmiş Sovet ordusunun həmin gün Azərbaycan xalqına qarşı həyata keçirdiyi hərbi təcavüz insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi tarixdə qalacaq.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə SSRİ müdafiə naziri D.Yazovun rəhbərliyi altında qoşun hissələri müxtəlif istiqamətlərdən barrikadaları dağıdıb əliyalın əhaliyə ağır texnikadan və silahlardan atəş açaraq şəhərə daxil oldular. 1990-cı ilin yanvarında Sovet qoşunlarının Bakıda həyata keçirdikləri qırğınlarda 131 nəfər öldürüldü, 600-dən çox adam yaralandı. Öldürülənlər arasında 5 millətin nümayəndəsi, 20-dən çox qadın, uşaq var idi. Evlərə, ictimai və şəxsi nəqliyyat vasitələrinə, şəhər təsərrüfatına və vətəndaşlara böyük maddi ziyan dəydi.

Xalq başsız qalmışdı, vahimə içində idi. Məhz belə bir ağır şəraitdə Heydər Əliyev Moskvanın Azərbaycan xalqına qarşı həyata keçirdiyi imperiya siyasətinə öz etiraz səsini qaldırdı. Ulu öndər yanvarın 21-də Azərbaycan SSR-in Moskvadakı Daimi nümayəndəliyinə gəlib siyasi iradə nümayiş etdirərək burada təşkil olunmuş, 6 minədək adamın iştirak etdiyi izdihamlı yığıncaqda çıxış etdi. Bu ağır günlərdə yaralı, heç yerdən kömək almayan doğma xalqı ilə birgə olduğunu bildirdi. O, çıxışında və verdiyi müsahibələrdə 20 Yanvar faciəsinə siyasi qiymət verdi, əliyalın xalqın qırılmasını hüquqa, demokratiyaya, humanizmə zidd, mərkəzin və respublika rəhbərlərinin günahı üzündən yol verilmiş kobud siyasi səhv kimi ifşa etdi. Azərbaycan rəhbərliyinə qayıdışdan sonra Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü ilin yanvar ayında Milli Məclisdə faciəvi 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verildi. Bakının ən möhtəşəm məkanında Vətən uğrunda canlarını qurban vermiş mərd, igid oğul və qızlarımızın uyuduğu Şəhidlər xiyabanı xalqımız üçün müqəddəs bir and yerinə, milli iradəmizin şanlı-şərəfli bir salnaməsinə çevrildi. Şəhidlərimiz və Şəhidlər xiyabanı azadlığımızın, müstəqilliyimizin, milli iradəmizin simvolu kimi bundan sonrakı nəsillərə də bir qürur mənbəyi olacaqdır.



Bu il xalqımız 20 Yanvar hadisələrinin 31-ci ildönümünü böyük Qələbəmizin sevinci, qüruru ilə qeyd edir, igid övladlarının fədakarlığını məhəbbətlə xatırlayır, onların əziz xatirəsini böyük ehtiramla yad edir. Artıq Şəhidlər xiyabanında uyuyan 20 Yanvar qurbanlarının, eləcə də Vətən müharibəsində həlak olan yüzlərlə qəhrəman oğullarımızın qanı yerdə qalmadı, onların qisası yağı düşməndən alındı. Artıq şəhidlərimizin ruhu şaddır, canlarından keçdikləri Vətən torpaqları düşmən tapdağından azad olunub, Ali Baş Komandan İlham Əliyevin siyasi iradəsi, şanlı Ordumuzun, əsgərlərimizin şücaəti sayəsində Azərbycanın bütövlüyü bərpa olunub, Qarabağımızda, eləcə də digər işğaldan azad edilmiş torpaqlarımızda üçrəngli bayrağımız dalğalanır.

***

Yanvarın 20-də paytaxt sakinləri ilə yanaşı, universitetimizin kollektivi də Şəhidlər xiyabanına gələrək Vətənimizin azadlığı uğrunda həlak olmuş şəhidlərin xatirəsini ehtiramla yad etmiş, məzarları önünə tər-qərənfil dəstələri düzmüşlər.

Akif HACIYEV.

Vətən müharibəsi: AzMİU-nun cəsur tələbə və məzunları

Azərbaycanın əzəli-əbədi torpaqları uğrunda gedən 44 günlük Vətən müharibəsi noyabrın 10-da torpaqlarımızın uzunmüddətli işğaldan azadlığı və Azərbaycan xalqının, dövlətinin, müzəffər və rəşadətli Ordusunun qeyd-şərtsiz qələbəsiylə başa çatdı. Bu Zəfər Azərbaycanın müasir tarixinə müstəsna bir gün kimi yazıldı.

Biz, Azərbaycan Memarlıq və İnşaat Universitetinin kollektivi olaraq fəxr edirik ki, bu qələbədə bizim məzun və tələbələrimizin də payı var. Könüllü müraciət və səfərbərlik əsasında döyüşlərə qatılan həmin qəhrəmanlarımız bütün vətən oğullarımız kimi böyük igidlik, mərdlik, cəsarət nümayiş etdirdilər. Universitetimizin 24 tələbə və məzunu Vətən qarşısında borclarını layiqincə yerinə yetirib, canları qədər sevdikləri torpaq uğrunda şəhadətə yüksəldilər.

Şəhidlərimizlə yanaşı, AzMİU-nun qaziləri, hazırda ön cəbhədə xidmətini davam etdirən cəsur ürəkli tələbə və məzunları da var. Onlar da şəhidlərimiz kimi Vətən uğrunda gedən döyüşlərdə canını, qanını ortaya qoyublar! Hər birini bu yazıda tanıtmaqdan qürur və şərəf duyuruq.

Babayev Ramil Fizuli oğlu – MİT fakültəsinin 801a1 qrup məzunu.

Aprel döyüşlərinin qazisi olan Babayev Ramil Füzuli, Cəbrayıl, Qubadlı, Şuşa (Topxana meşəsi) uğrunda gedən döyüşlərdə iştirak edib. Həmçinin, Xocalının Sığnaq kəndində də olub. Minomyotun dalğasına düşsə də yenə də hospitala getməyən igidimiz yenidən döyüşə qatılıb. Qəhrəman qazimiz "Qubadlının azad olunmasına görə" medalı ilə təltif olunub.

Əzizov Fariz İdris oğlu – İnşaat fakültəsinin 208a1 qrup tələbəsi.

O, Şuşa istiqamətində gedən döyüşlərdə başından 2 qəlpə yarası alaraq ağır yaralanıb. Hərbi hospitalda keçən uğurlu əməliyyatdan sonra həyata qayıdıb. Qardaşı Yunusun sözlərinə görə qəhrəmanımız gözünü açanda ilk olaraq azadlığı uğrunda döyüşdüyü Şuşanın düşmən caynağından qurtulub-qurtulmadığını xəbər alıb. Aslan ürəkli, mərd tələbəmiz "Vətən müharibəsi iştirakçısı", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif olunub.

Məmmədov Orxan Qeys oğlu – MİT fakültəsinin 800a2 qrup tələbəsi.

Suqovuşan, Talış kəndi və Ağdam uğrunda gedən döyüşlərdə iştirak edib. "Ağdamın azad olunmasına görə" medalı ilə təltif olunub.

Mirzəzadə Elgün Abbasəli oğlu – MİT fakültəsinin 800a2 qrup tələbəsi.

O, raket briqadasının tərkibində döyüşüb. "Ağdamın azad olunmasına görə" medalı ilə təltif olunub.

Nemətli Adəm Ceyhun oğlu – MİT fakültəsinin 845a1 qrup məzunu.

Füzuli, Xocavənd, Şuşa uğrunda gedən döyüşlərdə iştirak edib. "Füzulinin azad olunmasına görə" medalı ilə təltif olunub.

Namiqli Cavid Namiq oğlu – Nəqliyyat fakültəsinin 473a2 qrup məzunu.

Cəbrayıl, Hadrut, Zəngilan uğrunda gedən döyüşlərdə iştirak edib. "Cəbrayılın azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" və "Veteran" medalları ilə təltif olunub.

Gözəlzadə Nurlan Adil oğlu – Tikinti-iqtisad fakültəsinin 780a1 qrup tələbəsi.

Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və Laçın uğrunda gedən döyüşlərdə iştirak edib. "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif olunub.

Quluzadə Asiman Vüqar oğlu – ST və MKS fakültəsinin 306a1 qrup məzunu.

Füzuli istiqamətində gedən üzbəüz döyüşlərdə iştirak edərək güllə yarası alıb. Qəhrəman məzunumuz "Cəsur döyüşçü" medalı ilə təltif olunub.

Bağvanov Vilayət Kamran oğlu – ST və MKS fakültəsinin 356a1 qrup məzunu.

Füzuli, Cəbrayıl, Qubadlı və Xocavənd uğrunda gedən döyüşlərdə iştirak edib. Top sürücüsü olan qəhrəman məzunumuz "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunub.

İbadzadə Samid Yaşar oğlu – İnşaat-texnologiya fakültəsinin 690a1 qrup tələbəsi.

Füzuli uğrunda gedən döyüşlərdə yaralanıb. Müalicə alıb yenidən döyüşlərə qatılıb. Şuşa və Xocavənd uğrunda gedən döyüşlərdə iştirak edib. İgid tələbəmiz "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunub.

Mərdanov Nicat Tahir oğlu – ST və MKS fakültəsinin 305a2 qrup məzunu.

O, Qubadlı uğrunda gedən döyüşlərdə yaralanıb. Artıq onun səhhəti normaldır. O, "Cəsur döyüşçü" medalı ilə təltif olunub.

Əlicanov İslam Əlimirzə oğlu – SABAH qruplarının S206A qrup məzunu.

O, Füzuli və Xocavənd rayonları uğrunda gedən döyüşlərdə fəal iştirak edib. Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında şəxsi igidlik və şücaət nümayiş etdirən qəhrəmanımız "Füzulinin azad olunmasına görə" medalı ilə təltif olunub.

Quliyev Ramiz Rövşən oğlu – Tikinti-iqtisad fakültəsinin 745a3 qrup məzunu.

O, Qubadlı, Cəbrayıl, Zəngilan, Xocavənd istiqamətlərində gedən döyüşlərdə iştirak edib. İgidimiz "Cəbrayılın azad olunmasına görə" və "Zəngilanın azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif olunub.

Bünyadlı Abbas Rəsul oğlu – Tikinti-iqtisad fakültəsinin 765a qrup məzunu.

O, Füzuli, Xocavənd və Şuşa uğrunda gedən döyüşlərdə fəal iştirak edib. İgidimiz "Şuşanın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub.

Quliyev Xəzər Hüsnü oğlu – İnşaat-texnologiya fakültəsinin 646a2 qrup məzunu.

O, Cəbrayıl, Qubadlı və Laçın istiqamətində gedən döyüşlərdə iştirak edib. "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif olunub.

Əsədov Elmiz Cavid oğlu – İnşaat-texnologiya fakültəsinin 655a1 qrup məzunu.

O, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan və Laçın uğrunda gedən döyüşlərdə iştirak edib. Qəhrəman məzunumuz Xüsusi Təyinatlı Kəşfiyyat taborunun tərkibində döyüşüb. "Zəngilanın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalı ilə təltif olunub.

Əziz oxucular! Universitetimizin Vətən müharibəsində iştirak etmiş qaziləri, şəhid olmuş tələbə və məzunları haqqında bizə xəbər daxil olduqca növbəti saylarımızda Sizə məlumat verəcəyik.

Ülkər SƏTTAROVA,
Strateji inkişaf üzrə prorektor.

Memarlıq fakültəsinin tələbələri "Yurdumuza qayıdaq, yurdumuzu quraq!" yaradıcılıq müsabiqəsinin qalibləri sırasında

Müzəffər Azərbaycan Ordusunun Ali Baş Komandanı Prezident İlham Əliyevin rəhbərliyi altında işğaldan azad edilmiş ərazilərimizdə yerləşən kəndlərimizin və qəsəbələrimizin yenidən qurulması layihələrinin hazırlanması məqsədilə Azərbaycan Memarlar İttifaqının elan etdiyi "Yurdumuza qayıdaq, yurdumuzu quraq!" yaradıcılıq müsabiqəsinin yekunları müəyyən olunub.

Müsabiqəyə təqdim olunmuş 300-dən çox layihədən xüsusi komissiya tərəfindən 60 iş seçilərək münsiflər heyətinin müzakirəsinə verilib. Münsiflər heyəti – Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin sədri, respublikanın Əməkdar memarı, professor Elbay Qasımzadə (sədr) başda olmaqla İlqar İsbatov, Şəhla Qəhrəmanova və Elçin Şamilli seçilən işləri təhlil edib onların içərisindən 10 layihəni fərqləndiriblər. Fərqlənən layihələr içərisində Azərbaycan Memarlıq və İnşaat Universiteti Memarlıq fakültəsinin şəhərsalma ixtisası üzrə təhsil alan tələbələrin layihələri də yer alıb.



Fərqlənən layihələr arasından 4 layihə qalib olaraq müəyyən edilmişdir:

I yer – Ağayev Toğrul "Tərtər rayonunun Talış kəndinin bərpa layihəsi"nə görə – I dərəcəli diplom;

II yer – Muradov Rüstəm "Tərtər rayonunun Umudlu qəsəbəsinin şəhərsalma layihəsi"nə görə – II dərəcəli diplom;

III yer – Əzizova Məryəm "Tərtər rayonunun Suqovuşan qəsəbəsinin bərpa layihəsi"nə görə – III dərəcəli diplom;

III yer – Ağayeva Təhminə "Xocavənd rayonunun Tuğ kəndinin layihəsi"nə görə – III dərəcəli diplom.

Bundan əlavə 6 layihə Fərqlənmə diplomlarına layiq görülmüşdür:

Memarlıq konstruksiyaları və abidələrin bərpası kafedrasının dosenti Yeganə Hacıyeva, Günay Kərimova, Əbdül Kərimov – "Ağdam şəhərinin bərpa layihəsi";

Ləman İbrahimova – "Zəngilan rayonunun Mincivan qəsəbəsinin bərpa layihəsi";

Fidan Rzayeva – "Xocavənd rayonunun Hadrut qəsəbəsinin şəhərsalma layihəsi";

Fidan Məmmədova – "Xocavənd rayonunun Tuğ qəsəbəsinin layihəsi";

Aysu Məmmədova – "Kəlbəcər rayonunun Həsənriz kəndinin Eko-Turizm layihələndirilməsi";

Səkinə Nağıyeva – "Zəngilan rayonunun Bartaz kəndinin layihəsi".

Layihələri münsiflər heyətinin müzakirəsinə təqdim olunmuş digər müsabiqə iştirakçılarına isə xüsusi sertifikatlar təqdim edilmişdir.

Zahidə MƏMMƏDOVA,
Memarlıq fakültəsinin dekanı,
Əməkdar memar.

“Abşeron qəsəbələrinin memarlıq siması” müsabiqəsinin qalibləri elan olunub

Dövlət Şəhərsalma və Arxitektura Komitəsi yanında Bakı Şəhər Memarlıq və Şəhərsalma Baş İdarəsinin təşəbbüsü ilə Azərbaycan Memarlar İttifaqı və “Bakı Abadlıq Xidməti” MMC ilə birgə təşkil olunmuş “Abşeron qəsəbələrinin memarlıq siması” adlı müsabiqənin birinci mərhələsinə yekun vurulub. Xüsusi karantin rejimi ilə əlaqədar münsiflər heyətinin onlayn formatda keçirilən iclasında müsabiqənin qalibləri müəyyənləşib. Müsabiqənin münsiflər heyətində Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədr müavini İlqar İsbatov, Memarlar İttifaqı İdarə Heyətinin sədri Elbay Qasımzadə, Bakı Şəhər Memarlıq və Şəhərsalma Baş İdarəsinin rəhbəri Rüfət Mahmud, AzMİU-nun rektoru Gülçöhrə Məmmədova, “Bakı Abadlıq Xidməti” MMC-nin sədri Bünyad Qasımov və başqaları təmsil olunub.

Abşeronda son illər aparılan nəhəng quruculuq işlərinə təkan vermək, həmçinin milli incəsənət ruhunu yaşatmaq məqsədilə təşkil olunan və ümumi mükafat fondu 60 min manat olan müsabiqədə iştirak etmək üçün 53 layihə təqdim olunub. Abşeronun digər qəsəbələrini də əhatə edəcək müsabiqə proqramının ilkin mərhələsində təqdim olunan layihələr Əmircan, Ramana və Pirşağını əhatə edib. Təqdim olunan layihələrin hər biri ayrı-ayrılıqda münsiflər heyəti tərəfindən müxtəlif meyarlar üzrə dəyərləndirilib. Münsiflər heyətinin qərarı ilə hər qəsəbə üzrə seçilmiş 4 layihənin müəlliflərinə pul mükafatlarının verilməsi nəzərdə tutulub.

Xatırladaq ki, 1-ci yerin sahibi 10000 manat mükafat və 1-ci dərəcəli diplom, 2-ci yerin sahibi 5000 manat və 2-ci dərəcəli diplom, 3-cü yerin sahibləri (iki yer) isə hər biri 2500 manat və 3-cü dərəcəli diplomla mükafatlandırılıb. Digər iştirakçılara həvəsləndirici hədiyyələr və iştirakçı sertifikatları təqdim edilib.

Səbinə HACIYEVA,
Memarlıq konstruksiyaları və abidələrin bərpası kafedrasının müdiri.

Karyerayönümlü silsilə onlayn görüşlər davam edir

Azərbaycan Memarlıq və İnşaat Universitetinin Təcrübə və karyera şöbəsi tərəfindən təşkil olunan karyera istiqamətli onlayn görüşlər artıq ənənə halını alıb. Bu tip görüşlərin əsas məqsədi tələbələrə karyeralarını qurmaqda düzgün istiqamət vermək və onlara qarşıya çıxa biləcək problemlərin həllində yardımçı olmaqdır.



Zoom platforması üzərindən təşkil olunan görüşlər zamanı şöbənin əməkdaşları tərəfindən iş həyatına yeni başlayacaq gənclər üçün vacib olan müsahibə və müsahibə proseslərinə düzgün hazırlaşma qaydası aşılanır, özlərini ən yaxşı şəkildə ifadə etməyin təsirli yolları haqqında geniş məlumat verilir. Bununla yanaşı, karyera yolunda ilk addım olaraq CV-lərin düzgün tərtib edilməsi, ən çox yol verilən səhvlərə dair vacib məsələlər ətrafında müzakirələr aparılır. CV hazırlanması zamanı onlayn resurslardan necə istifadə etmələri barədə video izahat formasında məlumatlar nümayiş edilir.

Bu görüşlərin yaratdığı imkanlar sayəsində artıq gözlənilən nəticələr öz faydasını verib. Beləki son bir ay ərzində bu görüşlərdə iştirak edən tələbələrdən artıq 5 nəfəri öz ixtisası üzrə işlə təmin edilib. Onlardan 2 tələbə təcrübəçi, digərləri isə işçi olaraq artıq karyeralarına start veriblər. Bu nəticələrin əldə edilməsi digər tələbələrin də görüşlərə maraq və inamını artırır.

Xanlar QƏNİYEV,
AzMİU-nun Təcrübə və karyera şöbəsinin müdiri.

Maliyyə Nazirliyinin 13 əməkdaşı AzMİU-da əlavə distant təhsil alır



Mövcud pandemiya şəraiti dünya təhsil sisteminə də ciddi təsir göstərdi və təhsilin formasının dəyişdirilməsinə, modernləşdirilməsinə böyük bir təkan verdi. Aparılan təhlillər göstərir ki, təhsilə olan yeni yanaşma ənənəvi formadan kənara çıxmaqla yanaşı, təhsil alanlara yeni fürsətlər, təhsil verənlərə isə yeni imkanlar yaratdı.

Azərbaycan Memarlıq və İnşaat Universiteti də pandemiya dönəmində formalaşmış distant təhsildə böyük nailiyyətlər əldə etdi, işlək, elektron idarəçilik resursları formalaşdırdı. Bunun nəticəsidir ki, artıq uzun illər inşaat sahəsində çalışmış ixtisasca başqa sahənin mütəxəssisləri AzMİU-da distant yolla əlavə təhsil almaq istəyirlər. Bağlanmış müqaviləyə əsasən, Maliyyə Nazirliyinin 13 əməkdaşı İnşaat mühəndisliyi ixtisası üzrə 1 illik əlavə təhsil alır. Onlara Memarlıq konstruksiyaları, Mühəndis geodeziyası, İnşaat mexanikası, İnşaat konstruksiyası, Tikintidə smeta işi, Tikinti iqtisadiyyatı fənlərindən dərs keçilir. Dərslər noyabrın 23-dən başlanıb. Mütəxəssislərlə universitetimizin ən təcrübəli müəllimləri distant tədris aparırlar. Hazırda bu müdavimlər artıq I semestri başa vurublar.

Onu da qeyd edək ki, yekunda Nazirliyin 13 əməkdaşına əlavə təhsil aldıqları ixtisas üzrə diplomlar təqdim olunacaqdır.

Sahib FƏRZƏLİYEV,
Tikinti istehsalatının texnologiyası, təşkili və idarə olunması kafedrasının müdiri.

İnşaat fakültəsində “Vətən müharibəsinin qəhrəmanları” adlı tədbir



Yanvarın 7-də Azərbaycan Memarlıq və İnşaat Universitetinin İnşaat fakültəsində 200İ və T200İ ikili diplom qruplarının təşkilatçılığı ilə Vətən müharibəsində şəhid olan qəhrəman döyüşçülərimizə həsr olunan “Vətən müharibəsinin qəhrəmanları” adlı tədbir keçirilib. Tədbirdə fakültə rəhbərliyi ilə yanaşı, kafedra müdirləri, universtetin ictimai təşkilatlarının nümayəndələri iştirak edirdilər. Azərbaycan Respublikasının Dövlət Himni ilə başlayan onlayn görüşdə şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Fakültənin dekanı, Əməkdar müəllim Hikmət Məmmədov 44 günlük Vətən müharibəsi, Qarabağ və digər rayonlarımız uğrunda gedən döyüşlər, qalib Ordumuzun əsgərlərinin şücaəti, Vətən yolunda canından keçən şəhidlərimiz, qazilərimiz haqqında tədbir iştirakçılarına ətraflı məlumat verdi. Digər iştirakçılar da müharibə dönəmində xalqımızın birliyindən, insanların Orduya, Prezidentə dəstəyindən danışıb, qələbənin qazanılmasında bu amillərin böyük rolunu xüsusi vurğulayıblar.

Tədbirdə fakültənin tələbələri də çıxış ediblər, böyük Qələbəmizə həsr etdikləri video-çarxlar nümayiş olunub.

Sonda hamı şəhidlərimizə Allahdan rəhmət, yaxınlarına səbr, qazilərimizə şəfa diləyiblər.

Tural ƏLİYEV,
İnşaat fakültəsinin dekan müavini.

Tələbə Cəmilə Səfərova: "İmtahanları müvəffəqiyyətlə vermək üçün oxumaq prinsipial əhəmiyyət kəsb edir"

Koronavirus (COVİD-19) pandemiyası ilə mübarizə çərçivəsində xüsusi karantin rejimi və məcburi sosial təcrid tədbirləri səbəbi ilə ötən semestrdə olduğu kimi bu semestrdə də imtahanlar distant (məsafəli) formada keçirilir.

AzMİU-nun Mətbuat və informasiya şöbəsi Memarlıq fakültəsinin 168 i qrup tələbəsi Cəmilə Səfərovanın onlayn imtahan sessiyası ilə bağlı müsahibəsini oxuculara təqdim edir:

İmtahanları necə verdiniz?

– Bu semestrdə 6 fəndən imtahanım var idi. 2-si baxış imtahanı oldu, 4-nü testlə verdim. İmtahan zamanı obyektivliyə kölgə salacaq heç bir halla qarşılaşmadım. Texniki problemlər, neqativ hallar olmadı. Bu günə qədər imtahanlarda həmişə yüksək nəticələr göstərmişəm, çünki giriş balım hər zaman yüksək olub.

Bu semestr onlayn dərslərdə və imtahanlarda hər hansı çətinliyiniz olubmu?

– Xeyr. Mən dərslərə daimi qoşulan tələbə olmuşam, dərslərdə fəal iştirak etmişəm. Müəllimlərimiz də onlayn dərslərdə yüksək səviyyədə peşəkarlıq nümayiş etdirdi, dərslərimiz ənənəvi dərslərdən heç də geri qalmırdı. Semestr ərzində qazandığım biliklərdə müəllimlərimin əməyi böyükdür. Dərslərimizdə hər hansı anlaşılmazlıq olduqda ixtisas müəllimlərimiz bizə yardımçı oldu. Onlar imtahanöncəsi onlayn qaydada konsultasiyalar təşkil etdi, hətta zərurət yarandıqda fərdi məsləhət saatları keçirdilər. Onlayn imtahanlara gəldikdə isə keçən semestrdən təcrübəm var idi. İmtahan zamanı şəxsən məndə heç bir problem yaranmadı. Ümumiyyətlə, imtahanda uğurlu nəticə əldə etmək, imtahanı müvəffəqiyyətlə vermək üçün oxumaq prinsipial əhəmiyyət kəsb edir. Semestr boyu dərslərinə məsuliyyətlə yanaşan, biliyinə arxalanan hər bir tələbə üçün imtahan uğurlu nəticə ilə yekunlaşır.

Ənənəvi imtahanlarda iştirak etmiş tələbə kimi son 2 semestrdə onlayn imtahanlarını necə xarakterizə edərdiniz?

– Onlayn imtahanlar mənim fikrimcə, ənənəvi imtahanlardan çox da fərqlənmir. Test üsulu ilə təşkil olunan ənənəvi və onlayn imtahanlar arasında ciddi fərq görmürəm. Hər ikisi kompüter vasitəsilə keçirilir, nəzarətçi və proktorlar tərəfindən müşahidə olunur.

Pandemiyanın zərurətə çevirdiyi distant təhsilin üstün və ya mənfi tərəfləri barədə nə deyə bilərsiniz?

– Distant təhsilin tələbələr üçün üstünlüyü odur ki, onlar sakit şəraitdə, evdə, çox rahat ortamda dərslərdə iştirak edirlər. Nəqliyyat, tıxac problemləri olmur, yolda yorulmurlar, dərsə gecikmirlər. Çatışmazlıqları isə internet problemi, texniki nasazlıq, kompüter və s. ola bilər. Bəzi yerlərdə, xüsusilə bölgələrdə internetin keyfiyyətli olmaması dərs və imtahanlarda tələbələrə bəzən problemlər yaşadır. Bir mənfi cəhəti də qeyd edim ki, distant təhsil sistemində müəllim və tələbə arasında canlı ünsiyyət itir. Bu baxımdan mənə görə ənənəvi təhsil daha üstündür.

Proktorların fəaliyyətindən razısınızmı?

– Proktorların fəaliyyətini yüksək qiymətləndirirəm. Çox professional və təmkinli idilər. İmtahan başlamamışdan əvvəl riayət etməli olduğumuz qaydalar barədə bizi yetərli məlumatlandırır, düzgün istiqamət verir, bilmədiyimiz məsələləri başa salırdılar. Bu halda imtahanlar nümunəvi keçir, köçürmə halları, imtahan prosesini pozmaq meylləri demək olar ki, baş vermir.

Sonda tələbələrə nəyi tövsiyə edərdiniz?

– Tələbələrə məsləhət görərdim ki, tədris olunan fənlərə çox diqqət ayırsınlar, verilən tapşırıqları vaxtında yerinə yetirsinlər. Bəzi tələbələr il boyu səhlənkarlıq edir, keçilən mövzuları oxumur, imtahan vaxtı əl-ayağa düşürlər. Belə etmək düzgün deyil. Vaxtında çalışmaq, oxumaq, dərsləri dərindən mənimsəmək lazımdır. Belə olan halda tələbələr imtahanları uğurla verəcək, yaxşı nəticələr əldə edəcəklər.

Müsahibəni apardı:
Günel HƏSƏNOVA.

AzMİU-da "English Club" dərsləri başlayır

Azərbaycan Memarlıq və İnşaat Universitetində British Council tərəfindən təşkil olunan "English Club" professional ingilis dili dərslərinə fevral ayından start veriləcəkdir.

Qeyd edək ki dərslər tələbələr üçün ödənişsiz həyata keçiriləcəkdir. Dərslərdə iştirak etmək üçün 100-dən çox tələbə qeydiyyatdan keçmiş və onlar xüsusi onlayn platformada ingilis dili səviyyəsinin müəyyənləşdirilməsi üçün imtahan veriblər. İmtahan zamanı A2 səviyyədə olan tələbələr arasından 25 nəfəri seçilib, onlar tezliklə dərslərə başlayacaqlar.

Tələbələr 6 ay davam edəcək kurs zamanı ingilis dilinin iş həyatında, sahibkarlıq fəaliyyətində düzgün tətbiqi, həmçinin ingilis dilində təqdimat bacarıqlarının inkişaf etdirilməsi biliklərinə yiyələnəcəklər.

Kursun sonunda müvəffəqiyyət qazanan tələbələr British Council tərəfindən imzalanan xüsusi sertifikat əldə edəcəklər.

Qeyd edək ki, "English Club" kursları AzMİU-da 2019-2020-ci dərs ilində də uğurla tətbiq edilmiş və 20 nəfər tələbəyə sertifikat verilmişdir.

Türkan ƏLİYEVA,
Strateji planlaşdırma şöbəsinin müdiri.

Universitetin ictimai həyatında fərqlənən tələbələr mükafatlandırılıb

Azərbaycan Memarlıq və İnşaat Universitetinin Tələbə Həmkarlar İttifaqı Komitəsi 2019–2020-ci tədris ilində universitetin ictimai həyatında fərqlənən bir qrup aktiv tələbəni mükafatlandırıb.

Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Bayram Aslanov hər il olduğu kimi, bu tədris ilində də gənc fəalların fəaliyyətini yüksək qiymətləndirib. O, AzMİU-nun ictimai-sosial həyatında fərqləndiklərinə görə Memarlıq fakültəsinin 179A qrup tələbəsi Leyla Hüseynovaya, 118A3 qrup tələbəsi Heydər Əliyevə, İnşaat fakültəsinin 208A2 qrup tələbəsi Babək Həsənova təşəkkürünü bildirib, gələcək işlərində onlara uğurlar arzulayıb.

Sonda tələbələrə THİK-in sədri tərəfindən Təşəkkürnamələr təqdim olunub.

Suğra KƏRİMOVA,
Memarlıq fakültəsinin
II kurs tələbəsi.

Alimlərimiz Avropa Birliyinin beynəlxalq layihəsi üzrə müzakirələrdə iştirak edib

Avropa Birliyinin "Azərbaycanda ekoloji fövqəladə vəziyyəti qarşılamaq üçün 3-cü dövr təkmilləşdirilmiş təhsil kursunu dəstəkləyən İnnovativ Tədris Mərkəzi (ITACA)" adlı layihəsi çərçivəsində tərəfdaşların növbəti görüşü keçirilib.

ZOOM platformasında keçirilən bu görüşdə Azərbaycan Memarlıq və İnşaat Universitetinin Xarici əlaqələr şöbəsinin müdiri Fərhad Əliyev, Ekologiya kafedrasının müdiri, professor Fəqan Əliyev və kafedranın əməkdaşı Seynurə İbrahimova iştirak ediblər. Görüşdə layihə ilə bağlı maliyyə və büdcə məsələləri, tədqiqat mövzuları, tədqiqat mövzusuna problemlərlə əlaqəli qısa giriş, iş planı, gözlənilən nəticələr, avadanlıq məsələləri və s. müzakirə edilib.

Məlumat üçün qeyd edək ki, İtaliyanın La Sapienza Universitetinin koordinatorluğu, bir sıra yerli və xarici universitetlərin tərəfdaşlığı ilə gerçəkləşən ITACA layihəsi 2019-cu ildən start götürüb. Xəzər dənizinin neft çıxarılan regionlarında durğun suların toplandığı və reabilitasiyası ilə məşğul olan yeni nəsil 3-cü dərəcə xüsusi ixtisaslaşmış magistr kadrlarının hazırlanması təhsilinin təşkilinə həsr edilib.

Könül ŞİRİNOVA,
Xarici əlaqələr şöbəsinin müdir müavini.

Təsisçi:
Azərbaycan Memarlıq və İnşaat Universiteti

Redaktor:
Akif HACIYEV

Qeydiyyat № 316

Qəzet 1983-cü ildən çıxır

Ünvanımız:
Az1073, Bakı şəhəri, Ayna Sultanova küçəsi, 11

E-mail:
redaksiya@azmiu.edu.az

Telefon: 539-07-28
daxili 5-43, 6-08

Qəzet "Azərbaycan" nəşriyyatının kompüter mərkəzində səhifələnmiş və ofset üsulu ilə çap olunmuşdur

Tiraj 300
Sifariş 257